**Minarə Əjdər qızı MƏMMƏDOVA**

Qərbi Kaspi Universiteti
Psixologiya və Sosial iş kafedrasının müəllimi, psixologiya üzrə fəlsəfə doktoru
E-mail:minara62@list.ru

# İNKİŞAFINDA PROBLEMİ OLAN UŞAQLARIN ERKƏN YAŞ DÖVRLƏRİNDƏ GERİLİYİN AŞKARLANMASI VƏ KORREKSİYASI

**Xülasə**

Məqalədə dövrümüzün aktual problemlərindən olan kiçik yaşlı uşaqlarda inkişaf qüsurlarının aşkar edilməsi və onun psixo-pedaqoji korreksiya tədbirləri haqqında qeyd olunur. Məqalədə uşaqların inkişafı üçün xarakterik olan psixi funksiyaların həssas dövrlərinin əhəmiyyətindən bəhs edilir. Müəllifin fikrincə, inkişafda olan ləngimənin müəyyən edilməsi və korreksiyası onun işində dörd mərhələni əhatə etməlidir. I mərhələdə bir yaşlı uşağın skrininq müayinəsidir. II mərhələdə əsas iş differensial diaqnostika ilə müşayət olunur. Bu mərhələnin əsas məqsədi uşağın inkişaf geriliyini müəyyən etməklə qüsurun strukturunu aydınlaşdırmaq, həmçinin inkişaf geriliyinin tibbi, psixoloji və pedaqoji korreksiya imkanlarını müəyyən edib III mərhələni tədbiq etməkdir. IV mərhələdə isə inkişaf geriliyi olan uşaqlarla işləmək üçün mütəxəssislərin hazırlanmasından ibarətdir.

**Açar sözlər**: erkən yaş dövrləri, inkişaf ləngliyi, korreksiya, inteqrasiya, intellekt

**DOI:** 10.54414/MMSW1304

## Giriş

Müasir dövrün ən aktual problemlərindən biri sosiumda öz yerini tapmaq istəyən psixofiziki inkişafında problemi olan erkən yaşlı uşaqlardır. Psixo-fiziki problemli insanlarda olan çatışmazlığın korreksiyası nəticəsində onların sosial mühiti digər insanlarla paylaşması humanist prinsiplərdən irəli gələn məsələ sayıla bilər. Keçən əsrlərdə "normal cəmiyyət" ilə inkişafında müəyyən problemləri olan insanlar arasında səddin çəkilməsi insani prinsiplərə zidd olması ilə xarakterizə edilir. Bu zaman Qərbi Avropa və Amerika ölkələrində psixo-fiziki imkanları məhdud olan insanlara baxış əsaslı surətdə fərqli idi. Xüsusi təhsil ehtiyacı və əmək bacarıqları məhdud olan insanlara dövlət səviyyəsində diqqətlə yanaşıldı. Ümumiyyətlə, Qərbi Avropa və Amerika olkələrində imkanları məhdud olan insanlar üçün dövlət büdcəsindən ayrılmış sərmayə hərtərəfli öyrənilmişdi. Belə ki, xarici mütəxəssislər hesablamışlar ki, psixofiziki inkişaflarında problem olan uşaqların erkən yaş və məktəbəqədər təhsilinə sərmayə qoyuluşu iqtisadi cəhətdən daha çox dövlət üçün sərfəli ola bilər. Erkən və məktəbəqədər yaşlarında uşaqlara göstərilən kömək onların ümumtəhsil sisteminə keçməsinə imkan yaradır və xüsusi təhsil müəssisələrinə daha az sayda uşaqlar ehtiyaclı ola bilərlər. Problemə belə yanaşma nəticəsində bir çox xarici dövlətlər xüsusi təhsil ocaqlarının ixtisarına müvəffəq olmuşlar ki, bu da dövlət büdccə sərmayəsi üçün çox əhəmiyyətlidir. Həmçinin, Qərbi Avropa və Amerika mütəxəssisləri tərəfindən hesablanmışdır ki, iqtisadi cəhətdən imkanları məhdud olan şəxslərin ixtisas üzrə yüksək keyfiyyətli professional peşə təhsili ilə təmin edilməsi (əmək birjasında onlara olan yüksək tələb şərti ilə) onların əlil təqaüdü ilə ömür boyu təmin edilmələrindən çox-çox sərfəlidir.

Müasir dövrdə böyük vüsət almış psixofiziki inkişafında problemləri olan uşaqlara dövlət səviyyəsində və ayrı-ayrı şəxslər tərəfindən qayğı və diqqət ölkəmizin sivil ölkələr siyahısında özünün xüsusi yeri olduğunu sübut edir. Xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün təhsil ocaqları tikilir, abadlaşdırılır, müasir texniki vasitələrlə təmin edilir. Amma buna baxmayaraq, bəşəriyyətin qarşısında duran mühüm məsələ, imkanları məhdud olan şəxsləri normal sosiuma

inteqrasiya problemidir ki, bu da hələ öz aktuallığını itirməyib. Bütün bu işlər, imkanları məhdud olan insanların zamanında xüsusi korreksiya təlimini keçməsi və onların sosiuma inteqrasiyası ilə tamamlanır.

**Əsas hissə**

Uşağın inkişafındakı çatışmazlıqların erkən yaşlarda korreksiyası pedaqogika və psixologiya elmləri qarşısında duran vacib məsələlərdən sayılır. Bu barədə "Tibbi psixologiya" dərs vəsaitində qeydlər vardır. Əgər uşaq hər hansı bir çatışmazlıqla doğularsa bu zaman o, tibb işçilərin, psixo-pedaqoqların nəzarətinə keçir. İnkişafında müxtəlif növ pozuntu olan uşaqların təlim-tərbiyəsi üçün məktəbəqədər və məktəb sistemləri mövcuddur.

Görkəmli pedaqoq və psixoloqlar (L.S.Vıqotski, A.B.Zaporojes, D.B.Elkonin, M.Montessori) erkən yaş dövründə uşağın psixi inkişafı senzitiv dövründə olaraq bu dövrün əhəmiyyəti haqqında qeyd ediblər. Senzitiv dövrün təsirinə məruz qalan psixi funksiylar uşağın psixofiziologiyasını inkişaf ilə təmin edir.

Performizm nəzəriyyəsinə əsasən, inkişaf prosesi irsiliklə təyin olunur, tərbiyə isə xarici şərait kimi anadangəlmə qabiliyyətlərin aşkar olunması üçün imkanlar açmış olur.

Psixo-fizioloji tədqiqatlar nəticəsində uşağın psixi inkişafının yaş mərhələlərinin aşağıdakı şəkildə dövrlərə bölünməsi qəbul olunmuşdur:

- Çağalıq dövrü-0-1 yaşa qədər
- Körpəlik dövrü-1-3 yaşa qədər
- Məktəbəqədər dövr-3-7 yaşa qədər
- Kiçik məktəb yaş dövrü-7-11 yaşa qədər
- Yeniyetməlik dövrü- 11-15 yaşa qədər
- Cavanlıq dövrü- 15-18 yaşa qədər

Uşağın həyata gəlişi anlarına yaxın artıq ana bətnindəşərtsiz reflekslər formalaşır. Onların bazası üzərində körpəlikdövründə psixofiziki inkişaf üçün, xüsusilə nitqin və motorikanın inkişafı üçün bir sıra hazırlıq mərhələləri formalaşır. Həyatın birinci ilinin sonunda uşaq ilk addımlarını edir, az da olsa ona ünvanlanan sözləri anlamağa başlayır, böyüklər tərəfindən eşitdiyi söz və ifadələri müstəqil halda söyləməyə başlayır. Bu dövrdə uşaq öz münasibətindən irəligələrək əşya və fəaliyyəti xüsusi adlarla deyir.Mürəkkəb psixi funksiyalar olan hafizə, aktiv diqqət və s. inkişaf prosesində formalaşır. Onların əsasını yalnızanadangəlmə qabiliyyətlər deyil, həmçinin uşaq fəaliyyətinin üsul və formaları, onun ətrafdakılarla ünsiyyəti təşkil edir.

Şəxsiyyətin mürəkkəb inkişaf prosesi bioloji və sosial faktorların birləşməsi ilə şərtləşir. L.S.Vıqotski yazırdı ki, bu birləşmə irsi və mühit faktorlarının qovşağında mexaniki və statistik növ kimi çıxış etmir. O, hər bir psixi funksiyaya münasibətdə və uşağın inkişafının müxtəlif yaş mərhələlərində mürəkkəb, differensasiyalı, dinamik və dəyişkən amil kimi ifadə olunur. Buna görə də uşağın psixi inkişaf prosesini düzgün anlamaq üçün yuxarıda göstərilən hər bir faktorun rolunu və əhəmiyyətini təyin etmək vacibdir.İstənilən psixi prosesin inkişafına irsi və ətraf mühit faktorlarının təsiri əks olunur. Lakin psixikanın müxtəlif tərəfləri üçün və müxtəlif yaşlar üçün onların təsir sürəti vəəhəmiyyəti müxtəlifdir. Məsələn, sadə hərəkət aktı uşaq həyatının erkən mərhələlərində formalaşaraq öz inkişafında bioloji faktorlardan asılı olur; psixomotor dairəsinə daxil olan vəquruluşuna görə daha mürəkkəb hesab olunan əşyavi-məqsədyönlü hərəkətlər öz inkişafı üçün daha uzun müddət tələbedir və sosial-mühit faktorlarından asılı olur. İnsanın psixi proseslərinin vahid bir şəkildə inkişafı zamanı keçdiyi müxtəlif mərhələləri nəzərə alaraq qeyd etmək olar ki, mürəkkəb psixi proseslər olan ixtiyari diqqət, aktiv hafizə, idrak fəaliyyəti, həmçinin özünün inkişafı üçün uzun müddət tələb edən məktəbəqədər, məktəb, yeniyetməlik, cavanlıq dövrlərində xarakterin, davranışın inkişafı irsilikdən yox, daha çox ətraf sosial mühitdən (uşağın təlim-tərbiyə şəraitindən, mədəni-məişət əhatəsindən, ünsiyyətin xarakterindən, fəaliyyətin forma və üsullarından və s.) asılı olur.Ətraf mühit uşaq üçün nəinki şərait, həmçinin onun inkişafının mənbəyi kimi çıxış edir. Həyatının ilk anlarındanuşaq onu əhatə edən ətraf sosial mühitin təsiri altında olur. Ətraf sosial mühit uşağın inkişafını təyin etməkdən əlavə, L.S.Vıqotskinin sözləri ilə desək, "inkişafı öz arxası ilə aparır". Belə ki, irsi komponent nə qədər az da olsa ali psixi funksiyaların formalaşmasında iştrak edir. Uşağın inkişaf prosesinin xarakterik xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, hər bir növbəti yaş mərhələsində yalnız miqdar dəyişikliyi deyil, həmçinin şəxsiyyətin yeni xüsusiyyət və keyfiyyətləri

əmələ gəlir. Məhz bu keyfiyyətlər uşaq inkişafının əsas əlaməti sayıla bilər. İnkişaf prosesində həm psixi proseslər, həm də onların arasında olan mürəkkəb qarşılıqlı əlaqə və qarşılıqlı münasibətlər formalaşır.

Yaranmış olan mürəkkəb qarşılıqlı əlaqə və qarşılıqlı münasibətlər uşaq inkişafının əsas əlamətlərindən sayıla bilər.Bu da idrak strukturunun inkişafını təmin edir. İdrakın səviyyəsi isə öz növbəsində hər bir psixi prosesin və idrak fəaliyyətinin ayrı-ayrı formalarının gələcək inkişafını təyin edir.İnsan psixikasının inkişafı üçün müxtəlif psixifunksiyaların eyni vaxtda və eyni zamanda formalaşması xarakterik deyil. L.S.Vıqotskinin söylədiyi kimi, hər bir psixi funksiyanın inkişaf prosesi özünün optimal inkişaf mərhələsi ilə səciyyələnir və bu da həmin funksiyanın idrakda dominantlıq etdiyi dövr ilə üst-üstə düşür. Yeni doğulmuş uşağın differensasiyasız şüurunda öncə qavrayış funksiyası optimal inkişafı qazanmış olur. Bəzən elementar affektiv reaksiyaları ilə qarışmasına baxmayaraq, körpəlik dövrünün inkişafı üçün qavrayış funksiyası özünün dominantlıq vəziyyətini qorumuş olur. Uşaq həyatının sonrakı illərində də qavrayış funksiyası inkişaf edir. Lakin bu funksiyanın intensiv inkişafı məhz onun idrakda dominantlıq etdiyi dövrlə üst-üstə düşür.

L.S.Vıqotskinin nəzəriyyəsinə əsaslanaraq demək olar ki, həm normal, həm də inkişafında problem olan uşaqların psixi inkişafı eyni qanunauyğunluğa malikdirlər. Bu səbəbdən görkəmli pedaqoq və psixoloqlar tərəfindən erkən və məktəbəqədər yaşlı uşaqların psixi inkişafında senzitiv dövrlərvə uşağın ən yaxın inkişaf zonası haqqında olan bir çox nəzəriyyələri psixofiziki inkişafında problem olan uşaqlar üçün aktualdır.

Biz istərdik ki, tipik uşağın psixi inkişafında baş verən senzitiv dövrləri lakonik olaraq araşdıraq. Uşağın erkən yaş dövrlərində beynin plastikliliyi və psixi funksiyaların senzitivliliyi motor funksiyaların, emosiyaların, intellektin, nitqin və şəxsiyyətin formalaşması üçün güclü potensial kimi şıxış edir.

Bununla yanaşı, psixi funksiyalarının və intellektin inkşafı uşağın həyata gəldiyi ilk günündən başlayaraq müxtəlif yaş mərhələlərində fərqli şəkildə reallaşır. Yəni, hər bir psixi funksiya özünün formalaşma prosesində öz optimal inkişaf mərhələsinə malik olur. Bu da həmin funksiyanın şüurda dominant vəziyyəti ilə üst-üstə düşür. Yeni doğulmuş uşağın differensasiyasız şüurunda öncə ***qavrayış*** (şəkil 1.) funksiyası optimal inkişafı qazanmış olur.




**ŞƏKİL 1. Ontogenez zamanı psixi inkişaf**

Bəzən elementar affektiv reaksiyaları ilə qovuşmasınabaxmayaraq, körpəlik dövrünün inkişafı üçün qavrayış funksiyası özünün dominantlıq vəziyyətini qorumuş olur. Qavrayışın optimal inkişafı zamanı o həm özü inkişaf edir, həm də digər psixi funksiyaların inkişafında mühüm rol oynayır. Həyatın sonrakı illərində də qavrayış funksiyası inkişaf edir.Lakin bu funksiyanın intensiv inkişafı məhz onun idrakda dominantlıq etdiyi dövrlə üst-üstə düşür. Belə vəziyyəti mürəkkəb psixi funksiya hesab edilən nitqə də şamil etmək olar. ***Nitq*** (Şəkil 2.) uşağın inkişafında mərkəz yerlərdən birini tutur. Bu funksiyanın intensiv inkişafı 1,5-5 yaşlarda daha

çox müşhidə olunur. Uşağın nitqi müəyyən mənada 1,5 yaşa qədərki, 5 yaşdan sonrakı dövrlərdə də inkişaf edir. Lakin həyatın heç bir mərhələsində nitqin intensiv inkişaf tempi 1,5-5 yaş dövrlərindəki kimi sürətli olmur.




Şəkil 2. *ONTOGENEZ ZAMANI PSİXİ İNKİŞAF*

**Şəkil 2. Ontogenez zamani psixi inkişaf**

Məktəbəqədər dövrdən əvvəl inkişafda psixi funksiyalar üçün çox əhəmiyyətli olan irəliləyişləri müşahidə etmək olar. Budövrdə motorikanın inkişafı və yerimə ilə əlaqədar uşaq aktiv sürətdə əşyalarla, oyuncaqlarla fəaliyyətdə olaraq, məlum olan üsullarla müxtəlif əşyaların funksional istifadə qaydalarını mənimsəyir. Uşağın mənimsədiyi qaydalar onun idrak təcrübəsini əhəmiyyətli dərəcədə genişləndirir. Xüsusi intensiv- liklə bu dövrdə nitq inkişaf etməyə başlayır (üç yaşın sonunda uşağın lüğəti 1000 sözdən ibarət olur) ki, bu da uşağın ətrafdakı insanlarla ünsiyyətində, onun tərbiyəsində, ətraf aləmin dərk olunmasında unsiyyət vasitəsinə çevrilir. Nitqin inkişafı təfəkkürün inkişafı ilə şərtləşir. Belə ki, sözlər əşya və fəaliyyətlə uyğunlaşmış şəkildə ifadə olunur. Uşağın inkişaf səviyyəsi onun böyüklər tərəfindən sadə göstərişlərinin yerinə yetirilməsinə imkan yaradır. Təfəkkürün inkişafı öz növbəsində lüğət ehtiyatının genişlənməsinə və nitqin inkişafına imkan yaratmış olur.

Məktəbəqədər yaş dövründə psixi funksiyaların və şəxsiyyətin inkişafı intensivləşir. Bu dövrdə hərəkət dairəsi təkmilləşir. Hərəkətlər daha koordinasiyalı, cəld və inamlı olur. Bu vəziyyət uşağın praktik fəaliyyət dairəsini genişləndirir. Uşaq bu dövrlərdə sadə elementar özünəxidmət bacarıqlarına, bağçada və ya evdə sadə işləri görür. Şəkil çəkmək, yapma,yapışdırma və kəsmək kimi fəaliyyət növləri ilə məşğul olur. Lakin əl barmaqlarının incə, differensasiyalı hərəkətləri hələ tamformalaşmır.

Nitqin inkişafı məktəbəqədər yaşlı uşaqda sürətlə gedir. Normal inkişaf edən üç yaşlı uşaq adətən ana dilinin səs sisteminə və əsas qrammatik quruluşa tam yiyələnir. Yuxarıda qeyd etdiyimiz kimi, lüğət ehtiyatı zənginləşir. Belə ki, uşaq 6 yaşlarında 3500 söz ehtiyatına malikdir.

Uşağın ətrafdakılarla ünsiyyəti genişləndikcə onun rabitəli nitqi də inkişaf edir. Əlaqəli nitq vasitəsi ilə o, öz həyəcanını, görüb eşitdiklərini söyləmək imkanına malik olur. Artıq bu dövrdə nitqin tənzimləyici funksiyası formalaşır. Nitqin və psixi inkişafın belə səviyyəsinə uşaq öz ünsiyyəti, aktiv fəaliyyəti və ətraf aləmlə qarşılıqlı münasibəti iləçatmış olur.

Məktəbəqədər yaşlı uşağın qavrayışında da əhəmiyyətli inkişafı görmək mümkündür. Bu dövrdə qavrayış müstəqil, məqsədyönlü bir prosesə çevrilmiş olur. Uşaq müstəqil surətdə əşya sırasından istədiyi əşyanı axtarıb seçə bilir, onu uzun müddət müşahidə edir, əsas əlamətlərini qeyd edir, ətrafgerçəkliyi müşahidə edir və s. Bu dövrdə nitqin inkişaf səviyyəsifəal lüğətin zənginləşməsinə xidmət edir. Belə ki, uşaq artıq əşyanın keyfiyyətini sözlərlə ifadə etməyi bacarır.

4-6 yaşlı uşağın fəaliyyəti çox vaxt nitq ilə müşayiətolunur. Belə ki, fəaliyyət zamanı nitq tənzimləyiciyə çevrilir. Tədricən daxili nitq sanki uşağın daxilinə "qapanaraq" ixtisar olunur və uşağa yaranmış situasiyanı fikirləşməyə, bu və yadigər hərəkəti qiymətləndirməyə, cavab verməyə, öz arzu vəistəklərini daha mürəkkəb psixi funksiyalar vasitəsi ilə ifadəetməyə imkan yaradır. Mürəkkəb forma dedikdə vasitəli davranış, uşaq şəxsiyyətinin və emosional iradi dairəsinin inkişafı nəzərdə tutulur.

Məktəbəqədər yaş dövründə inkişafda dominant mövqeyə digər psixi proseslərdə sahib olurlar. Bunlardan biri də hafizədir. ***Hafizə*** (Şəkil 3.) həm məktəbəqədər yaş dövründən əvvəl, həm də məktəbəqədər yaş dövründən sonra inkişaf edir. Lakin özünün maksimal inkişaf tempinə ancaq bu yaş dövrlər- ində malik olur.




**Şəkil 3. Ontogenez zamani psixi inkişaf**

Onun inkişafı artıq məlum dərəcədə inkişaf etmişqavrayış, təfəkkür və nitq kimi proseslərin təsiri nəticəsində baş verir. Onların inkişafı qavrayışın inkişafı üçün əlverişli şəraityaradır. Bununla belə, hafizə öz dominant vəziyyətində ikən,yuxarıda adları çəkilən psixi proseslərin inkişafına da müsbəttəsir göstərir. Məktəbəqədər dövrdə, xüsusilə bu dövrün ilkin mərhələlərində qeyri-ixtiyari hafizə ixtiyari-məntiqi hafizəyəəvəzlənmiş olur. Uşaq çox asanlıqla şer, nağıl, hekayə yaddasaxlaya bilir. Sonrakı dövrlərdə, əsasən oyun fəaliyyəti zamanı onlarda ixtiyari hafizənin ilk elementləri formalaşmağa başlayır.

Normal məktəbəqədər yaş dövründə özünəməxsus inkişaf tempinə və şüurun bilavasitə formalaşmasına yardımçı olan ***diqqət*** (Şəkil 4.)prosesini də aid etmək olar. Diqqət mühüm psixi proses olaraq məktəbəqədər yaş dövründə uşağın psixofiziki inkişafı ilə parallel olaraq mühüm dəyişikliyə məruz qalır ki, bu da uşağın gələcək təlim prosesi üçün zəruri hesab oluna bilər. Uşağın məktəbəqədər yaş dövrünün mərhələlərində diqqətin psixofizioloji müsbət dəyişikliyini biz müşahidə edirik. Yəni, mürəkkəb psixi proses olan diqqət mərhələ-mərhələ öz qeyri ixtiyari növündən ixtiyari növünə bu dövrdə keçid edir. Əgər biz uşağın yaş dövrləri ilə diqqətin bu iki növünün bir- birini əvəz etməsini təqribi göstərsək, bu zaman aşağıdakı şəkil alınacaq:

- 3 yaş – ixtiyari diqqətin müddəti 10-15 dəqiqə;
- 4 yaş – ixtiyari diqqətin müddəti 20-25 dəqiqə;
- 5 yaş – ixtiyari diqqətin müddəti 30-35 dəqiqə;
- 6 yaş – ixtiyari diqqətin müddəti 35-40 dəqiqə;
- 7 yaş – ixtiyari diqqətin müddəti 45 dəqiqə.

Yuxarıda qeyd olunan göstəricilər uşaqda heç bir sinir, sensor, intellekt və psixofizioloji pozuntu olmadığı haldamüşahidə edilə bilər.




**Şəkil 4. Ontogenez zamani psixi inkişaf**

Praktik fəaliyyət dairəsinin genişlənməsi, ətraf gerçəklikilə daha yaxından tanışlıq, sosial təcrübənin qismən qazanılması, nitqin əhəmiyyətli dərəcədə inkişafı və bunların nəticəsindəətrafdakı insanlarla ünsiyyətin daha da təkmilləşməsi məktəbəqədər yaşlı uşaqda gerçəkliyə qarşı şüurlu münasibətiformalaşdırır. Məhz bu dövrdə uşağın marağına səbəb olan ətraf gerçəklikləri müxtəlif xarakterli sualların yaranmasına səbəb olur. Bu təfəkkürün ümumiləşdirmə qabiliyyətinin formalaş- masını göstərir. Bu cür proseslər psixi inkişafın sonrakı dövrlərində böyük rol oynayır. Uşağın mürəkkəb inkişaf yoluonun aktiv və müxtəlif fəaliyyət növləri ilə sıx surətdəəlaqədardır. Böyük aktivlik, müstəqilliyə meyillilik, emosional rənglərlə ifadə olunan maraqlar bu dövrdə oyunun aparıcı rolu ilə şərtləşmiş olur. Uşaq şəxsiyyətinin bütün tərəfləri oyundaformalaşır. Oyunda məcazi işarələrlə əməliyyat aparan uşağın (ağacdan at, raket, oturacaqdan qatar, gəmi, təyyarə düzəltmək) təfəkkürü inkişafa doğru növbəti addımı atmış olur. Belə ki,oyunun mənasına uyğun olaraq əşyanın şərti olaraq adınıdəyişdirərək təfəkkürün inkişafı mövbəti mərhələyə keçir. Hərbir oyunun uşağı özünə tabe edən qaydaları vardır. Oyun zamanıuşaq öz üzərinə müəyyən rolu götürərək davranışın mürəkkəbformalarını həyata keçirir. Bilavasitə impulsiv olmaqlarınabaxmayaraq, oyun prosesində uşaq davranışını məlum qaydalara tabe etmək bacarığına yiyələnir. Hər bir oyun əsl emosionalmaraq ilə əlaqədardır. Buna görə də oyunda təbiət, insan əməyi,ictimai münasibətlər haqqında müxtəlif xarakterli motivlərinyaranması sayəsində uşaqlar həyati situasiyaları yaşamış olurlar.Məktəbəqədər yaş dövründə uşağın inkişaf yolu onun şəxsiyyətinin, davranışının, xarakterinin müəyyən səviyyədə formalaşmasına gətiribçıxarır. Böyükməktəbəqədər yaşdövründə elementar da olsa, situasiyalara, davranışlara,ətrafdakıların fəaliyyətinə münasibət formalaşır. Bu yaşdövründə onlarda özlərinə qarşı tənqidi münasibətin elementləri yaranır, yəni onların ünvanlarına söylənilən tərifləri kiçik məktəbəqədər yaş dövründə olduğu kimi qəbul etmirlər. Şəxsiyyətin və idrakın ümumi inkişafının məlum göstəricisi kimi uşağın öz davranışını idarə etməsini, bilavasitə öz emosional arzularını məhdudlaşdıraraq mühit tələblərinə tabe etmələrini də bununla əlaqələndirmək olar. Ətrafda baş verən hadisələrə, situasiyalara öz münasibətini bildirmək uşağın mənəvi təsəvvürlərinin və mədəni davranış bacarıqlarının formalaşması üçün əlverişli zəmin sayıla bilər. Bu və ya digər bir işi görən zaman böyüklərin

tələblərinə tabe olmağa, çətinlikləri dəf etməyə, fəaliyyət prosesində başlanılan işi sona çatdırmağa, tapşırılan iş üçün məsuliyyət daşımasına təsir göstərir.

Məktəbəqədər yaşlı uşağın psixi inkişafı haqqında qısa məlumat kiçik məktəb yaşlı uşaqların yaşla əlaqədar inkişaf xüsusiyyətlərinin davamı və əsası kimi verilir. Belə ki, uşağın psixi inkişafının vahid prosesində ciddi təcrid edilmiş mərhələləryoxdur.

Artıq böyük məktəbəqədər yaş dövründə mürəkkəb psixi funksiyaların formalaşması başlayır ki, bu da kiçik məktəb yaş dövrünün intensiv inkişafında mühüm rol oynayır.

Məktəbə getməklə uşağın qarşısında yeni fəaliyyət növlərinin mənimsənilməsi məsələsi durur. Məktəbəqədər yaş dövründə uşağın qarşısında uşaq bağçasında və ya evdə bu və yadigər tapşırıqların yerinə yetirilməsi dururdu ki, bu da onunümumi fəaliyyətində oyun xarakterinə malik idi. Məktəb həyatında isə uşaq üzərinə müəyyən məsuliyyət götürür. O,ciddi surətdə qaydalara riayət etməli və müəllimin tapşırıqlarını yerinə yetirməlidir. Məktəbə getməklə uşaq oyun və əməyi daha dəqiq surətdə differensiasiya etmiş olur. Uşağın məktəb dövründə hər bir fəaliyyət növlərinin müəyyən saatları olur. Bu da onun şəxsiyyətinin inkişafında vacib amillərdən biri sayılır. Məktəbdə oxuyarkən uşağın məntiqi hafizəsi, ixtiyari diqqəti, təfəkkürünün daha mürəkkəb formaları kimi mürəkkəb psixi funksiyaları təkmilləşir və intensiv surətdə inkişaf etməyə başlayır.

Əgər məktəbəqədər yaş dövründə uşaqda mexaniki hafizə daha çox üstünlük təşkil edirdisə, məktəb yaşı dövründə hafizə ixtiyari formaya çevrilmir. Əgər o, hər-hansı bir materialı öyrənməyi məqsəd kimi qarşısına qoyursa, bu zaman yadda saxlama prosesində öyrənilən materialın ayrı-ayrı hissələri arasında müəyyən məntiqi əlaqələri qurmağı da bacarır.

Məktəb yaşı dövründə psixi funksiya olan diqqət də yenimərhələdə özünü daha təkmilləşmiş formada büruzə verir. Uşaq öz diqqətini aktiv və ixtiyari şəkildə müəyyən obyektin üzərində saxlayıb və cəmləşdirməyi bacarır.

Məktəb dövrünün əvvəllərində şüurda dominant rol artıq ***məntiqi təfəkkürə*** (Şəkil 5.) keçmiş olur. Müəyyən inkişaf səviyyəsinə çatmış qavrayış, hafizə, nitq, diqqət və s. digər psixi proseslərin təsiri nəticəsində təfəkkür bu dövrdə daha intensiv inkişafa malik olur. Bu psixi proseslər arasında mürəkkəb qarşılıqlı əlaqənin və qarşılıqlı münasibətin dialektik şərtləşmiş xarakterini göstərir. Məntiqi təfəkkür digər psixi proseslər kimi, uşağın gələcək həyatında inkişafa malik olacaq, amma bu prosesin intensiv və optimal inkişafı məktəbəqədər yaş dövrünün sonuna və kiçik məktəb yaş dövrünün əvvəlinə təsadüf edir.




Şəkil 5. *ONTOGENEZ ZAMANI PSİXİ İNKİŞAF*

**Şəkil 5. Ontogenez zamani psixi inkişaf**

Kiçik məktəb yaş dövründə təfəkkürün inkişafında mühüm dəyişiklik baş verir. Məktəbli hadisələrin səbəb və nəticələrini daha aydın surətdə dərk etməyə başlayır. Tədricən səbəb və nəticələr arasında olan əlaqəni şifahi surətdə

ifadə etmək qabiliyyətinə malik olur. Məktəbəqədər yaş dövründə tanış situasiyaları əyani-obrazlı təfəkkür vasitəsi nitq ilə ifadə etməsi uşaq üçün xarakterik olduğu halda artıq məktəb yaşı dövründə uşaq anlamağa başlayır ki, baş verən hər bir hadisə müxtəlif kateqoriyalara aid ola bilər. Bu, onu sübut edir ki, artıq məktəb yaş dövründə təfəkkür abstraksiyaya və ümumiləş- dirməyə tam əsaslana bilir. Beləliklə, təfəkkürün daha mürəkkəbformalarının ilkin fazalarının inkişafı baş verir.

Uşaq həyatının müxtəlif yaş mərhələ və dövrlərində şüurun strukturunda baş verən bu hadisə mürəkkəb dialektik xarakterlə şərtləşməklə yanaşı funksiyalararası əlaqə və münasibətlər yaş artdıqca həm dəyişkən və daha da mürəkkəb forma almış olur.

Məktəbəqədər yaş dövrünün sonu və məktəb yaş dövrünün əvəllərində emosional iradə dairəsinin inkişafında mühüm dəyişiklikləri müşahidə etmək olar. Məktəbəqədər yaş dövründə uşağın fəaliyyəti və onun böyüklərlə münasibəti bilavasitə emosional xarakter daşıyır. Bu uşağın hətta böyük məktəbəqədər yaş dövründə belə onun daxili nitqinin hələ tam inkişaf səviyyəsinə çatmadığına dəlalət etdiyini söyləyir.

Psixikanın bu mürəkkəb formalarının inkişafı onun özünün və ətrafdakıların fəaliyyət və davranışına tənqidi münasibət bəsləməsinə imkan yaradır. Belə xüsusiyyətlər uşaq şəxsiyyətini formalaşmasına müsbət təsir göstərir.

Uşaq şəxsiyyətinin inkişaf səviyyəsi öz növbəsindəixtiyari fəaliyyətin bütün növlərinin inkişafına zəmin yaradır. Uşağın emosional iradə dairəsi yalnız davranış, həyəcan, ətraf aləmə münasibət, fəaliyyətin motivasiyasını deyil, həmçinin mahiyyət etibarı ilə subyektin bütün intellektual fəaliyyətini tənzim edir. Mühit uşağın inkişafı üçün həm şərait, həm də mənbədir. Uşaq həyatının ilk günlərindən etibarən onu əhatəedən ətraf sosial mühit ilə qarşılıqlı əlaqədə olur. Ətraf sosial mühit onun inkişafını təyin etməklə yanaşı, L.S.Vıqotskinin sözləri ilə desək, “onun inkişafını öz ardınca aparır”. Bununla yanaşı, irsi komponent də ali psixi funksiyaların formalaşmasında iştrak edir.

Uşağın inkişaf prosesinin xarakterik xüsusiyyətlərindən biri də hər bir yaş mərhələsində şəxsiyyətin strukturunda kəmiyyət dəyişikliyindən əlavə, yeni xüsusiyyət və keyfiyyətlərin yaranması da müşahidə olunur.

Yuxarıda göstərilən bütün məsələlərin son həllinin müvəffəqiyyələ nəticələnməsi üçün, qeyd etdiyimiz kimi, xüsusi təhsilə tələbi olan istər psixi inkişaf planında, istərsə də fizioloji baxımdan problemli olan uşaqlara təbiət tərəfindən verilən senzitiv dövrlərinin köməyi ilə müəyyən psixo-pedaqoji təsir zəruri və labüddür. Yəni, erkən yaş dövrü uşaq beyninin plastikliliyindən və senzitiv dövrlərində emosiyaların, intellektin, nitqin və şəxsiyyətin formalaşmasından istifadə edərək korreksion köməyin böyük potensialını müəyyən etmiş olur. Uşağa göstərilən erkən və adekvat köməyin pozulması daha effektli kompensasiya etməyə imkan yaradır. Effektli kompensasiya ilk növbədə uşağın psixo-fiziki inkişafına şamil edilməlidir. Bununla yanaşı, effektli və vaxtında görülmüş korreksiya işi nəinki ikinci geriliyin əmələ gəlməsini, həmçinin imkan daxilində onu aradan da qaldıra bilər.

İnkişafındakı olan geriliyin erkən aşkarlanması və onun korreksiya işi ölkəmizdə defektologiya elmi qarşısında xüsusi prinsipiallıqla öz yerini tapmalıdır.

İmkanları məhdud olan uşaqların aşkarlanması və psixo-pedaqoji korreksiya təsiri yollarından istifadə edərək onların normal cəmiyyətə inteqrasiya etdirilmələri üçün vahid sistemin yaradılması zəruridir. Belə güman edirik ki, bu sistemin əsas məqsədi psixo-fiziki inkişafındakı geriliyi olan uşaqları aşkarlamaq üçün biryaşlı uşaqların müxtəlif müayinə modellərindən istifadə və aprobasiyası eyni zamanda uşaqlara onların ailəsinə müxtəlif formalı psixo-pedaqoji və sosial köməyin göstərilməsi zəruridir.

**Nəticə**

Fikirmizcə. İnkişafda olan geriliyin aşkarlanması və korreksiyası öz işinə dörd mərhələni daxil etməlidir.

I mərhələ, biryaşlı uşaqların skrininqli müayinəsidir. Bu, ilk növbədə, uşağın inkişafında aşkarlanan risk faktorlarını əks etdirən kartların işlənməsini nəzərdə tutur. Kartlarda, əsasən, artıq doğum evindən çıxarkən uşaqda olan risk faktoru haqqında qeydlər edilməlidir. Sonra bu kartlar evin sahə poliklinikasına verilir ki, orada

da öz növbəsində uşağın inkişafı, onun müayinəsi sistemli şəkildə müşahidə olunur. Uşağın inkişafında aşkarlanan tempin ləngliyi və ya gerilik şübhələri olduqda dərhal kompleksli tibbi-psixo-pedaqoji müayinəyə göndərilməlidir.

Bu mərhələnin əsas məqsədi uşağın inkişafındakı hər-hansı gerilik haqqında olan şübhələri aşkarlamaqdır. Bu problemi müvəffəqiyyətlə həll etmək üçün Səhiyyə Nazirliyi ilə birgə:

- Uşağın inkişafında olan risk faktorlarını əks etdirən kart;
- Bir yaşlı uşaqların əsəb-psixi inkişafının skrininqli metodla
müayinəsi;
- Uşağı və xüsusilə onun inkişafının müşahidə və müayinə proseduru;
- Skrininq diaqnostikası üçün effektli texniki vasitələrin əldə olunması
həll edilməlidir.

II mərhələdə əsas iş diferensial diaqnostika ilə müşaiyət olunur. Bu da öz növbəsində uşaq poliklinikalarında, xüsusi mərkəzlərdə, xəstəxanalarda həyata keçirilir. Bu mərhələnin əsas məqsədi uşağın inkişafda olan geriliyi aşkarlamaq, qüsurun strukturunu dəqiqləşdirmək, geriliyə tibbi təsirin və psixo-pedaqoji korreksiyanın imkanlarını təyin etməkdən ibarət olmalıdır.

III mərhələ isə, inkişafda aşkarlanan geriliyin tibbi-psixo-pedaqoji korreksiya tədbirlərindən ibarətdir. Bu zaman, mütləq olaraq korreksiya tədbirlərinin müxtəlif təşkili formalarını işləmək lazımdır. Belə ki, difər ölkələrində aparılan tədqiqat işləri göstərmişdir ki, mərkəzi sinir sistemi pozuluşu, intellektual, nitq problemi olan uşaqlarla korreksion təlim erkən yaşlı uşaqların yaşadıqları ərazidə yerləşən uşaq poliklinikasında, korreksiya tipli mərkəzlərdə həyata keçirilir. Bu işi erkən yaşlı uşaqlarla işləmiş təcrübəli müəllim-defektoloq aparır. Sensor, emosional inkişafında problemi olan, dayaq-hərəkət aparatında mürəkkəb qüsur strukturu olan uşaqların çatışmazlığı o qədər spesifikdir ki, erkən yaşlardan onlar xüsusiləşdirilmiş köməyə ehtiyac duyulur. Həmçinin, korreksiya tədbirini uşağın yaşadığı ərazi poliklinikasında və ya yaxın ərazidə olan tibbi- psixoloji-pedaqoji (reabilitasiya) mərkəzlərinə yaxın olması vacibdir.

Axırıncı qeyd etdiyimiz məntəqə uşağın yaşadığı sahədə, xüsusilə poliklinika şəraitində müəllim defektoloqun göstərdiyi köməyə nəzarət edə bilər.

Nəzərdən qaçırılmayan məsələlərdən biri də odur ki, yeni korreksiya təsir formalarını genişləndirmək məqsədəuyğun hesab olunur. Məsələn, ev şəraitində təlimləşdirən qrup və ya xüsusi məktəbəqədər müəssisələrdə qısamüddətli qrupların olması. Həmçinin bu mərhələdə əsl zəruri məsələlərdən biri də uşağın tibbi-psixoloji-pedaqoji müayinəsini hər il bir yaşda yaxşı olardı ki, 2 dəfədən az olmamaq şərtilə, daha dərindən öyrənilib araşdırılmasıdır. Bunun da əsas məqsədi pozuluş strukturunu dəqiqləşdirmək, reabilitasiya tədbirlərinin effektivliyini müəyyən etmək, tibbi-psixoloji-pedaqoji korreksiya təsirin sonrakı mərhələlərini araşdırmaqdır.

Erkən aşkarlama inkişafda geriliyin korreksiya və onun fəaliyyəti sisteminin araşdırılması kadr hazırlığında da xüsusi diqqət tələb edir.

IV mərhələdə isə erkən yaşlarda, inkişafında geriliyi olan uşaqlarla tibbi- psixo-pedaqoji korreksiya tədbirlər sistemində işləmək üçün mütəxəssis hazırlığı koordinasiyalı olaraq əsaslı dövlət proqramının daha da təlmilləşdirilməsi vacibdir.

Bazar iqtisadiyyatının inkişaf etdiyi dövrdə hər bir yenilikdən bilavasitə iqtisadi effektivlik gözlənilir. Amma, yuxarıda deyilənlərə əsaslanıb onu qeyd etmək stərdik ki, tibbi-psixoloji-pedaqoji korreksiya tədbirlərinə məruz qalan uşaqların çox hissəsi iqtisadi effektivlik olmadan ümumtəhsil ocaqlarında təlim- tərbiyə olunmaq imkanı qazanırlar.

## ƏDƏBİYYAT SİYAHISI

1. İsmayılov N.B., İsmayılov F.N. Tibbi psixologiya və psixoterapiya (dərslik), 1-ci nəşri, “Maarif” nəşriyyatı, Bakı, 2002;
2. M.Ə.Məmmədova “Hiperaktiv uşaqlarda diqqətin pozulmasi” Dərs vəsaiti. B., 2018;
3. M.Ə.Məmmədova “Xüsusi qayğiya ehtiyaci olan uşaqlara psixokorreksiya işin təşkili” Metodik vəsait. B., 2016;

4. Məmmədova M. "Xüsusi psixologiya" Dərs vəsaiti, Bakı, 2023;

5. Бернштейн Н.А. «О ловкости и ее развитии»: Изд-во «Физкультура и спорт» Государственного комитета СССР по печати; Москва; 1991, ISBN 5 278 00339 1, стр.129, http://www.koob.ru/bertstein_n/o_lovkosti_i_razvitii;

6. Бурлакова Н.С. Детский психоанализ: Школа Анны Фрейд: Учеб. пособие для студ. высш. учеб.заведений/ Н.С.Бурлакова, В.И.Олешкевич.-М.: Издателский центр «Академия», 2005;

7. Власова Т.А., Певзнер М.С. О детях с отклонениями в развитии. М., 1973, с. 6-14;

8. Выготский Л.С. Психология, М.: Изд-во ЭКСМО-Пресс, 2000;

9. Выготский Л. С. Собрание сочинений: В 6-ти т. Т. 2. Проблемы общей психологии\ Под ред. В.В.Давыдова — М.: Педагогика, 1982, стр. 103, http://www.koob.pro/vigodsky_v_l/ problems_of_gen_psy;

10. Выготский Л. С. Собрание сочинений: В 6-ти т. Т.5. Основы дефектологии / Под ред. Т.А.Власовой. — М.:Педагогика,1983,стр.231;

11. Дети с ограниченными возможностями:проблемы и инновационные тенденции в обучении и воспитании.Хрестоматия по курсу «Коррекционная педагогика и специальная психология» /Сост. Н.Д.Соколова, Л.В.Калинникова. – М.: ООО «Аспект», 2005;

12. Специальная педагогика: Учеб. пособие для студ. Высш. пед.учеб. заведений /Л.И.Аксенова, Б.А.Архипов, Л.И.Белякова и др.; Под ред. Н.М.Назаровой. – 3-е изд.,испр. – М.: Издательский центр «Академия», 2004. 400 с.

**Minara Ajdar qızı MAMMADOVA**
Western Caspian University, Department of Psychology and Social Work, Teacher of the Department of Psychology and Social Work
E-mail:minara62@list.ru

## RETARDATION IN THE EARLY YEARS OF CHILDREN WITHDEVELOPMENTAL PROBLEMS DETECTION AND CORRECTION

### Abstrakt

This article highlights the importance of early identification and intervention for children with developmental disabilities. The article discusses the importance of sensitive periods in the development of children with disabilities.

The authors propose a four-stage model for identifying and addressing developmental delays:

Stage I: Screening in young children. If a child shows signs of developmental delay, they should be referred for comprehensive psychological, medical, and pedagogical assessment.

Stage II: Differential diagnosis to identify the specific nature of the developmental delay and determine the potential for intervention.

Stage III: Implementation of individualized medical, psychological, and pedagogical interventions to address the identified developmental delay.

Stage IV: Further development of the state program for the coordinated training of specialists to work in the system of medical, psychological, and pedagogical correctional interventions for young children with developmental delays.

Key words: early age periods, retardation, correction, integration, intelligence

**Минара Аждар кызы МАМЕДОВА**
Западно Каспийский Университет, Кафедра психологии и социальной работы,
преподователь, доктор философии по психологии

## ОТСТОВАНИЕ В РАННЕМ ВОЗРАСТЕ У ДЕТЕЙ С ПРОБЛЕМАМИ РАЗВИТИЯ, ОБНАРУЖЕНЕ И КОРРЕКЦИЯ

### Резюме

Выявление и коррекция у детей раннего возраста с отклонениями в развитии упоминается в статье как наиболее актуальная проблема современности.

В статье сделаны заявления о важности сензитивных периодов психических функций, характерных для развития детей. По мнению автора, выявление и коррекция задержки развития должна включать в свою работу четыре этапа. I этап - скрининговое обследование детей годовалого возраста. Во II стадии основная работа сопровождается дифференциальной диагностикой. Основная цель этого этапа – уточнить структуру порока путем выявления задержки развития ребенка, а также определить возможности медико-психолого-педагогической коррекции отставания развития. III этапе применять медико-психолого-педагогических мероприятий по коррекции выявленного отставания в развитии. На IV этапе важно дальнейшее обучение базовой государственной программе в координации с подготовкой специалистов по работе с детьми с отставанием в развитии.

**Ключевые слова:** *ранний возрастной период, задержка развития, коррекция, интеграция, интеллект.*

**Daxil olub**: 10.04.2024